# Paşinyanın Koçaryan-Sarkisyan müttəfiqliyi ilə devrilməsi ehtimalı yoxdur



**"Nikol Paşinyanın küçə hərəkatları ilə devrilməsi ehtimalı hazırkı dövr üçün real görünmür. Əgər belə bir ehtimal olarsa, bu məsələ daha çox Qərblə Nikol Paşinyan münasibətlərinin dinamikası ilə izah edilməlidir".**

Bu sözləri qəzetimizə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov deyib. O bildirib ki, Nikol Paşinyan Qərbin ona qoyduğu tələb və şərtlər əsasında siyasət yürüdə bilmir. Ermənistan artıq Azərbaycanın sülh gündəmindəki tələblərin əsirinə çevrilib ki, bu da regionda Azərbaycan-Türkiyə strateji birliyinin dinamikasını gücləndirir. "Nikol Paşinyanın sülh gündəliyindəki mövqeyi Rusiyanın maraqları ilə dərin ziddiyyət təşkil etmir. Bununla belə, Rusiya üçün də Paşinyana yanaşmada ehtiyatlılıq dərəcələri qalmaqdadır. Deməli, nəticə olaraq, Paşinyanın devrilməsi son nəticədə Rusiya-Qərb sövdələşməsi ilə müəyyənləşə bilər. Hələlik isə Ermənistanda Rusiyameyilli qüvvələrlə Qərbə inteqrasiya tərəfdarları arasında rəqabət qızışır. Lakin Rusiyanın Ermənistandakı siyasi təsir rıçaqları zəifləyib, Moskva Paşinyana müxalif qüvvələrin mərkəzləşdirilməsini və onun böyük elektorat qazanmasını təşkil edə bilmir", - deyə ekspert əlavə edib.

Ekspert qeyd edib ki, üstəlik, Rusiya ilə yanaşı, Robert Koçaryanı və Serj Sarkisyanı Qərb də gizli dəstəkləyir. Nikol Paşinyanın necə devrilməsi ilə bağlı Koçaryanla Sarkisyan arasında böyüyən fikir ayrılıqları daha çox Rusiya-Qərb mübarizəsinin əlamətləri ilə əlaqədardır. Eyni zamanda Nikol Paşinyanın Koçaryan-Sarkisyan mümkün müttəfiqliyi ilə devrilməsi ehtimalları yoxdur, çünki erməni ictimaiyyətində onlara qarşı dərin bir nifrət var. Digər keçmiş prezident Levon Ter-Petrosyanın da elektorat cəhətdən ciddi problemləri var. Buna görə də, Paşinyanın hakimiyyətdən getməsi sabiqlərə ediləcək yatırımlar hesabına baş tutmayacaq.

A.Kərimov vurğulayıb ki, belə bir variant varsa, yeni kadrın elə Ermənistan hakimiyyətinin öz daxilində hazırlanacağı ehtimal olunur: Ancaq Paşinyanın iqtidardan uzaqlaşdırılması ehtimalları zəif olaraq qalmaqdadır. Səbəbindən asılı olmayaraq, siyasi qüvvələr nisbətində Rusiyanın Qərbə uduzduğu görünməkdədir. Lakin Moskvanın Ermənistanda hərbi və iqtisadi portfeli doludur ki, bu da İrəvana təzyiq aləti kimi tətbiq olunur".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***



Azərbaycan.- 2025.- 13 may (№ 97).- S.6.